Qarabağın görkəmli simaları

# Lətif İmanov (1922-1980)



***İmanov Lətif Muxtar oğlu 1922-ci il sentyabrın 15-də Şuşa şəhərində anadan olmuşdur. Orta təhsilini 4 saylı Şuşa şəhər məktəbində almışdır. 1944-cü ildə Azərbaycan Dövlət Universitetinin Fizika fakültəsini bitirmişdir. Lətif İmanov əmək fəaliyyətinə Azərbaycan SSR Elmlər Akademiyasının Fizika İnstitutunda başlamışdır. O, əvvəlcə kiçik elmi işçi, 1944-cü ildən 1954-cü ilə qədər isə böyük elmi işçi kimi fəaliyyət göstərmişdir. 1954-1980-ci illər ərzində laboratoriya rəhbəri vəzifəsini icra etmişdir.***

Lətif İmanov 1954-cü ildə fizika üzrə fəlsəfə doktoru, 1964-cü ildə fizika üzrə elmlər doktoru elmi dərəcəsini, 1966-cı ildə isə professor elmi adını almış, 1968-ci ildə AEA-nın müxbir üzvü, 1976-cı ildə isə həqiqi üzvü seçilmişdir.

Lətif İmanov radiospektroskopiya üzrə tanınmış alimdir. Elmi fəaliyyətinin əsas istiqamətləri olan molekulyar qaz radiospektroskopiyası, dielektrik relaksasiya, elektron-paramaqnit rezonans və nüvə maqnit rezonans spektroskopiyası sahələri üzrə əsaslı elmi nəticələr əldə etmişdir.

**L.İmanovun rəhbərliyi ilə mürəkkəb qaz radiospektrometr qurğuları yaradılmış, müxtəlif molekulların və onların izotop formalarının mikrodalğa spektrləri öyrənilmiş, spirt və merkaptan molekullarının yeni dönmə izomerləri aşkar edilmişdir.** Alim yaratdığı ölçü qurğuları vasitəsilə üzvi maye və bərk maddələrin tədqiqi sahəsində uğurlar qazanmış, şüşələrin elektron-paramaqnit rezonans spektrini və elektrik xassələrini öyrənmişdir.

Xarici və respublika jurnallarında dərc edilmiş 150-dən çox məqalənin müəllifidir (onlardan 10-u müəlliflik şəhadətnaməsidir). Rəhbərliyi ilə 1 elmlər doktoru və 10 fəlsəfə doktoru yetişdirilmişdir.

**L.İmanov keçmiş SSRİ EA Spektroskopiya Elmi Şurasının üzvü, Radiospektroskopiya problemi üzrə Respublika Elmi Şurasının sədri olmuşdur.**

Lətif İmanov elmi tədqiqat işi ilə paralel olaraq pedaqoji fəaliyyətlə də məşğul olmuşdur. O, Bakı Dövlət Universitetinin Fizika fakültəsinin tələbələrinə radiofizikadan və fiziki elektronikadan mühazirələr oxumuşdur.

Alim 1979-cu ildə "Əməkdar elm xadimi" fəxri adına layiq görülmüşdür.

Akademik Lətif İmanov 12 mart 1980-ci ildə Bakıda ürək xəstəliyindən vəfat etmişdir.